# CASPİAN AUDİT COMPANY

ADDRESS: A.Salamzade 65b, Baku, Azerbaijan
TELEPHONE: (994 12) 561-38-80/85
FAX: (994 12) 562-90-43
EMAIL: caspianauditcompany@gmail.com

## "GLOBAL INTERIORS GROUP" MMC

## VÖEN: 1400198291

## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

## KONSOLİDƏ EDİLMİŞ AUDITOR HESABATI

M Ü N D Ə R İ C Ə T

Rəbərliyin məsuliyyətinin bəyanı
Maliyyə hesabatlarına aid qeydlər
Maliyyə vəziyyəti haqqında hesabat
Mənfəət və zərər haqqında hesabat
Kapital dəyişikləri haqqında hesabat
Autitorun rəyi

# 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

Rəhbərlik 31 dekabr 2022-ci il tarixə Cəmiyyətin maliyyə vəziyyətini , həmi tarixə başa çatmış il üzrə əməlliyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və aktivdə dəyişikləri əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Audit Standartlarına (MHBS) uyğun maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün ("MHBS") -nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- Cəmiyyətin əliyyatlarının açıqlanması və izah edilməsi, habelə, onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") -na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Direktor : ______________________________
(imza)

Baş mühasib: ______________________________
(imza)

M.Y.

# "GLOBAL INTERIORS GROUP" MMC

## 31 DEKABR 2022-Cİ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI İLƏ BAĞLI QEYDLƏR

### 1. Cəmiyyət haqqında ümumi məlumat.

"GLOBAL INTERIORS GROUP" MMC 20.11.2002-ci il tarixində vergi orqanları tərəfindən 1400198291 nömrəli VÖEN-ə əsasən qeydiyyata alınmışdır. Cəmiyyət Azərbaycan Respublikasında yaradılmış və payçılarının məhdud məsuliyyət daşıdığı məhdud məsuliyyətli cəmiyyət olaraq Azərbaycan qanunvericiliyinə uyğun şəkildə təsis edilmişdir və bu ölkədə fəaliyyət göstərir.

"GLOBAL INTERIORS GROUP" MMC öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və özünün Nizamnaməsi əsasında həyata keçirir.

"GLOBAL INTERIORS GROUP" MMC-nin müstəqil vergi bəyannaməsi, dairəvi möhürü, cari (manatla və xarici valyutalarda) hesabları vardır.

"GLOBAL INTERIORS GROUP" MMC-nin nizamnamə kapitalı 20.00 (iyirmi) manat, 10 pay, 100% pul şəklində. Cəmiyyətin iştirakçılarının pay sahiblərinin nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir:

BRİDGE GROUP OF COMPANİES - 90 %
Hüseynov Yaqub Valeh oğlu - 10 %

Cəmiyyətin direktoru: Hacıyev Ruslan Şahin oğlu

### 1.1 Cəmiyyətin hüquqi ünvanı

"GLOBAL INTERIORS GROUP" MMC-nin hüquqi ünvanı: AZ 1065, Bakı şəhəri, Nəsimi rayonu, Abbasqulu Ağa Bakıxanov, ev 6

### 1.2 Əməliyyat valyutası

Hazırki maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur.

### 2. Cəmiyyətin əməliyyat mühiti.

Azərbacan Respublikasında inkişaf etməkdə olan, bazar iqtisadiyyatına xas olan xüsusiyyətlər, o cümlədən milli valyutanın bir çox xarici ölkələrdə praktiki cəhətdən sərbəst dönərli valyuta hesab edilməməsi və nisbətən yüksək inflyasiya, güclü iqtisadi artım müşahidə olunmaqdadır. Kommersiya sektoru nümayəndəliyin bu sektora olan inam səviyyəsinin azalmasına və iqtisadi şəraitin dəyişməsinə həssasdır və müntəzəm olaraq likvidlik səviyyəsinin azalması tendensiyaları, Cəmiyyətin maliyyə vəziyyətinə təsiri (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq iqtidarında deyil.

### 3. Uçot siyasətinin qısa xülasəsi.

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində isifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tədbiq edilmişdir.

### 3.1 Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları.

Cəmiyyətdə mühasibat uçotu Azərbaycan Respublikası "Mühasibat uçotu haqqında" Qanununa, Vergi qanunvericiliyinə, Azərbaycan Respublikası Maliyyə Hesabatlarının Beynalxalq Audit Standartlarına (BAS) uygun olaraq aparılır. Maliyyə hesabatlarının BAS-na uyğun tərtib edilmesi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmcinin tələb edilir ki, Cəmiyyətin uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın.

### 3.2. Valyutaların yenidən hesablanması

*(a) Funksional valyuta və hesabat valyutası*

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu müəssisənin yerli valyutası olan Azərbaycan Respublikası manatıdır (AZN).

*(b) Əməliyyatlar və qalıqlar*

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nağd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan mebelləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir. Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərclər, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

*Xarici valyuta məzənnələri*

Cəmiyyət maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı valyuta məzənnələrindən istifadə etmişdir:

| | | 31 dekabr 2021 | 31 dekabr 2022 |
|---|---|---|---|
| 1 | 1 ABŞ dolları | 1,7000 AZN | 1,7000 AZN |
| 2 | 1 EUR | 1,9265 AZN | 1,8114 AZN |
| 3 | 1 GBP | 2,2925 AZN | 2,0477 AZN |

### 3.3 Əsas vəsaitlər.

Əsas vəsaitlər toplanmış köhnəlməni çıxmaqla qalıq dəyərdə göstərilir. Əsas vəsaitlərin təmir və saxlama xərcləri, o cümlədən binaların və icarəyə götürülmüş binanın təmirinə çəkilən xərclər bu halda aktivləşdirilir ki, bu təmir və saxlama müvafiq aktivlərin iqtisadı həyatının uzanması və ya əhəmiyyətli şəkildə yaxşılaşması ilə nəticələnir və aktivin güman edilən iqtisadi həyatı və ya icarənin müddəti ərzində, bunlardan hansı daha az olarsa, bərabər aşınma üsulu əsasında köhnəlmə hesablanır. Sair təmir və saxlama xərcləri çəkildiyi zaman xərcə silinir.Köhnəlmə bərabər aşınma prinsipinə əsasən əsas vəsaitlərin təxmi edilən faydalı həyatı ərzində tətbiq edilir.

### 3.4 Əsas vəsaitlərin amortizasiyası.

Əsas vəsaitlərin amortizasiyası Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 114-cü "Amortizasiya ayırmaları və gəlirdən əsas vəsaitlər üzrə çıxılan məbləğlər" maddəsinə müvafiq olaraq qalıq dəyəri üzrə müəyyən olunmuş normalar əsasında hesablanmışdır.Əsas vəsaitlərin kategoriyaları üzrə illik amortizasiyı normaları aşağıdakı kimi müəyyən edilir:

| | |
|---|---|
| Binalar, tikililər və qurğular | 40 il və ya 7 % |
| Maşınlar və avadanlıqlar | 5 il və ya illik 20% |
| Nəqliyyat vasitələri | 5 il və ya illik 25% |
| İT avadanlıqları | 5 il və ya illik 25% |
| Mebel və təsərrüfat inventarları | 5 il və ya illik 20% |
| Digər əsas vəsaitlər | 5 il və ya illik 20% |

### 3.5 İnvestisiyalar.

İnvestisiyalar ilkin maya dəyərində əks edilən kapital investisiyalarından ibarətdir. Alınmış faizlər ayrıca olaraq faiz gəlirinə aid edilir. Bazar dəyərindəki azalma daimi hesab edilmədikdə, maliyyə hesabatlarında əks etdirilmir.

### 3.6 Ehtiyatlar

Ehtiyatlar iki göstəricidən ən aşağı dəyərə malik olan qiymət üzrə əks etdirilirlər:

(a) Maya dəyəri

(b) Xalis satış dəyəri

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Hazır məhsulun və bitməmiş istehsalın maya dəyərinə xammal və material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Xalis satış dəyəri – adi təsərrüfat fəaliyyəti zamanı qiymətləndirilmiş mümkün satış qiyməti ilə satış üzrə xərclər arasışdakı fərq məbləğidir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

### 3.7 Gəlir və xərclərin qeydə alınması

Gəlirin və xərcin müəyyən edilməsi: Cəmiyyət muhasibat uçotunu, gəlirin və xərcin uçotunu, manatla hesablama metodundan istifadə edərək aparır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 134-cü "Hesablama metodundan istifadə edilərkən gəlirin və xərcin uçotu qaydası» maddəsinə əsasən hesablama metodu ilə uçot aparan vergi ödəyicisi gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından əsası olmayaraq gəlirini və xərcini müvafiq sürətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə almalıdır.

### 3.8 Alıcılar və sifarişçilərin debitor borcları

Alıcılar və sifarişçilərə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyyatları o halda yaradılır ki, elə obyektiv sübutlar mövcüddur ki, nümayəndəlik tərəfindən ilkin maliyyləşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyyatların məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyəri arasındaki fərqdir. ehtiyyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

### 3.9 Pul vəsaitləri və onların ekvivalentləri.

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişiklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları əks etdirilir.

### 3.10 Kreditlər və borclar.

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılması çəkilən xərclər çıxmaqla, ədalətli dəyər üzrə tanınır. Kreditlər və borclar, nümayəndəlik tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısa müddətli öhdəliklər kimi təsnifləşdirilir.

### 3.11 İcarə.

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi

müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

### 3.12 Dividendlərin verilməsi.

Cəmiyyətin səhmdarlarına dividendlər maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Cəmiyyətin səhmdarları tərəfindən təsdiq edilmişdir ( qərar qəbul edilmişdir).

Hesabat dövründə Cəmiyyətin təsisçilərinə dividendlər elan edilməmiş və ödənilməmişdir.

## 4. Maliyyə risklərini idarə edilməsi.

Cəmiyyətin fəaliyyəti bir sıra maliyyə risklərinə meyillidir: bazar riski (valyuta riski,faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyarə təsir riski və qiymət riski daxil olmaqla); kredit riski;likvidlik riski;faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski. Cəmiyyətin risklərin idarə olunması üzrə planı,maliyyə risklərin qabaqcadan müəyyən edilə bilməməsi amilinə cəmləşdirilmişdir və Cəmiyyətin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldirilmişdir.

## 5. Uçot siyasətinin tədbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri

Cəmiyyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminləri və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmcinin rəhbərliyin fikrincə mövcüd şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir. uçot siyasətinin tədbiqi zamanı həmçinin peşəkar mülahizələr və fərziyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan aşağdakılar daxildir:

### 5.1 Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

### 5.2 Vergi sistemi və qanunvericiliyi

Azərbaycan Respublikasının vergi , əmək, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi ilə nəzərdə tutulan qaydalar tədbiq edilir.

## 6. "GLOBAL INTERIORS GROUP" MMC

### KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
**31 Dekabr 2022-ci il tarixinə**

| | | Azərbaycan manatı ilə | |
|---|---|---|---|
| | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2022-ci il |
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Torpaq,Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | | 532 263,83 | 1 085 922,22 |
| Daşınmaz əmlaka investisiyalar | | 4 722 869,83 | 4 722 869,83 |
| Qeyri-maddi aktivlər | | | |
| Bioloji aktivlər | | | |
| Təbii sərvətlər | | | |
| İstiqraz payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| Uzunmüddətli debitor borcları | | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| Sair uzunmüddətli aktivlər | | | |
| Səhmlər və iştirak payları üzrə maliyyə qoyuluşları | | 100,00 | 100,00 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **5 255 233,66** | **5 808 892,05** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | | 837 184,46 | 6 350 610,79 |
| Qısamüddətli debitor borcları | | 1 405 780,51 | 2 584 767,87 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 953 799,05 | 1 789 517,86 |
| Sair qısamüddətli aktivlər | | 3 151 756,70 | 3 817 944,66 |
| Sair qısamüddətli Maliyyə aktivləri | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | **6 348 520,72** | **14 542 841,18** |
| **CƏMİ AKTİVLƏR** | | **11 603 754,38** | **20 351 733,23** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | | 20,00 | 20,00 |
| Emissiya gəliri | | | |
| Geri alınmış kapital (səhmlər) | | | |
| Kapital ehtiyatları | | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 1 411 647,33 | 2 274 049,70 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (məcmu zərər) | | 1 921 614,45 | 3 225 133,86 |
| **CƏMİ KAPİTAL** | | **3 333 281,78** | **5 499 203,56** |
| **ÖHDƏLİKLƏR** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | 2 100 970,90 | 889 146,51 |

| | | |
|---|---|---|
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | |
| Uzunmüddətli kreditor borcları | | |
| Sair uzunmüddətli öhdəliklər | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **2 100 970,90** | **889 146,51** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Qısamüdətli kreditor borcları | 4 602 709,03 | 11 668 256,05 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 192 890,12 | 986 816,50 |
| Sair qısamüdətli öhdəliklər | 1 373 902,55 | 1 308 310,61 |
| **Cəmi qısa müddətli öhdəliklər** | **6 169 501,70** | **13 963 383,16** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **8 270 472,60** | **14 852 529,67** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **11 603 754,38** | **20 351 733,23** |

Direktor : ______________________
(imza)

Baş mühasib: ______________________
(imza)

M.Y.

## 7. "GLOBAL INTERIORS GROUP" MMC
## KONSOLİDƏ EDİLMİŞ MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT
**31 Dekabr 2022-ci il tarixinə**

Azərbaycan manatı ilə

| | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | | 14 781 348,46 | 25 145 684,80 |
| Satışın maya dəyəri | | (6 668 340,58) | (12 253 165,82) |
| **Ümumi mənfəət (zərər)** | | **8 113 007,88** | **12 892 518,90** |
| Sair əməliyyat gəlirləri | | 66 838,78 | 62 964,41 |
| Kommersiya xərcləri | | (930 613,91) | (1 093 305,31) |
| İnzibati xərclər | | (255 790,95) | (337 432,92) |
| Amortizasiya | | (179 298,23) | (276 600,51) |
| Əmlak vergisi | | (67,44) | (5 468,78) |
| Torpaq vergisi | | | |
| Sair əməliyyat xərcləri | | (4 749 437,02) | (8 287 228,95) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **2 064 639,11** | **2 955 446,92** |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | (285 463,21) | (158 960,14) |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Keçmiş illərin zərəri | | | |
| Vergidən azad olan xərclərin gəlirdən çıxılmayan məbləğlərin cəmi | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Məzənnə fərqindən (zərər) / gəlir | | (14 616,74) | 46 075,34 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **1 764 559,16** | **2 842 562,12** |
| Mənfəət vergisi | | (352 911,83) | (568 512,42) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **1 411 647,33** | **2 274 049,70** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| **Səhmdarların payı** | | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | | |
| **Bir səhmin əsas mənfəəti** | | | |

Direktor : ______________________
(imza)

Baş mühasib: ______________________
(imza)

M.Y.

## 8. "GLOBAL INTERIORS GROUP" MMC

## KONSOLİDƏ EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
**31 Dekabr 2022-ci il tarixinə**

**Azərbaycan manatı ilə**

| Göstəricilər | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Əvvəlki illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərər) | Cari illin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərər) | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixə qalıq** | **20,00** | | **808 971,52** | **1 112 642,93** | **1 921 634,45** |
| 2021-ci il üzrə xalis mənfəət (zərər) | | | 1 112 642,93 | 1 411 647,33 | 2 524 290,26 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| Maddələr arasında köçürmələr | | | | (1 112 642,93) | (1 112 642,93) |
| **31 dekabr 2020-ci il tarixə qalıq** | **20,00** | | **1 921 614,45** | **1 411 647,33** | **3 333 281,78** |
| 2022-ci il üzrə xalis mənfəət (zərər) | | | 1 411 647,33 | 2 274 049,70 | 3 685 697,03 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| Maddələr arasında köçürmələr | | | (108 127,92) | (1 411 647,33) | (1 519 775,25) |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | **20,00** | | **3 225 133,86** | **2 274 049,70** | **5 499 203,56** |

Direktor : ______________________
(imza)

Baş mühasib: ______________________
(imza)

M.Y.

## 9. "GLOBAL INTERIORS GROUP" MMC

| Satışın maya dəyərinin elementləri | | |
|---|---|---|
| | Azərbaycan manatı ilə | |
| | 2021-ci il | 2022-ci il |
| İşçi heyəti üzrə xərclər - əmək haqqı | (768 195,23) | (904 319,52) |
| İşçi heyəti üzrə xərclər – sosial sığorta ayırmaları | (162 418,68) | (188 985,79) |
| Bank xidməti üzrə xərclər | (52 479,97) | (156 821,70) |
| Enerji xərcləri | (85 007,30) | |
| Rabitə xərcləri | (17 630,03) | (19 001,51) |
| Yanacaq xərcləri | (65 036,86) | (92 694,92) |
| Malın dəyəri | (0,00) | (6 452 229,83) |
| Xammal və materiallar | (6 668 340,58) | (5 800 935,99) |
| Biləvasitə malların təqdim edilməsi ilə bağlı sair xərclər | (4 749 437,02) | (8 287 228,95) |
| İcarə üzrə xərclər | (2 558,14) | (26 172,65) |
| Əsas vəsaitlərin və Qeyri maddi aktivlərin amortizasiyası | (179 298,23) | (276 600,51) |
| Faizlərlə bağlı xərclər | (285 463,21) | (158 960,14) |
| Təmir xərcləri | (8 694,38) | (17 663,18) |
| Sığorta üzrə xərclər | (24 384,27) | (25 078,96) |
| Əmlak vergisi | (67,44) | (5 468,78) |
| **CƏMİ :** | **(13 069 011,34)** | **(22 412 162,43)** |

## 10. Konsolidə edilmiş pul vəsaitləri və onların ekvivalentləri

**Azərbaycan manatı ilə**

| | | 2022-ci il |
|---|---|---|
| 1. | Kassada nəğd vəsait | 48 526,57 |
| 2. | Bankda olan hesablaşma hesabı AZN | 1 317 513,11 |
| 3 | Bankda olan valyuta hesabı GBP | 0,43 |
| 4. | Bankda olan valyuta hesabı EUR | 492,43 |
| 5. | Bankda olan valyuta hesabı USD | 353,36 |
| 6. | Bankda olan valyuta hesabı RUB | 4,10 |
| 7. | ƏDV depozit hesabı | 422 627,86 |
| 8. | Sair hesablar | 0,00 |
| **Pul vəsaitləri və onların ekvivalentləri cəmi:** | | **1 789 517,86** |

Direktor : ____________
(imza)

Baş mühasib: ____________
(imza)

M.Y.

Caspian Audit Company

ADDRESS: A.Salamzade 65b, Baku, Azerbaijan
TELEPHONE: (994 12) 561-38-80/85
FAX: (994 12) 562-90-43
EMAIL: caspianauditcompany@gmail.com

# RƏY № ifPgLv93QM

## AUDITOR RƏYİ

## "GLOBAL INTERIORS GROUP" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ VÖEN: 1400198291

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş AT/064 qeydiyyat N-li 08 fevral 2022-ci il tarixli icazəyə əsasən fəaliyyət göstərən "Kaspian Audit Kompani" Məhdud Məsuliyyətli Cəmiyyətinin auditoru Məhərrəmov Cəmil Səttar oğlu 20 sentyabr 2023-cü il tarixli M-24484 №-li müqaviləyə əsasən "GLOBAL INTERIORS GROUP" MMC–nin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətinin konsolidə olunmuş hesabatından, konsolidə olunmuş məcmu gəlirlər hesabatından, konsolidə olunmuş kapitalda dəyişiliklər hesabatından və göstərilən tarixə başa çatan pul vəsaitlərinin hərəkətinə dair konsolidə olunmuş hesabatından habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə olunmuş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq, auditini aparmışam.

### Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Cəmiyyətin idarə edilməsinə və maliyyə hesabatlarının düzgünlüyünə görə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Məsul şəxslər maliyyə hesabatlarının Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə,dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda,

rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafuiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasib uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə Hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim vəzifəmiz maliyyə hesabatlarında dələduzluq və səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyin daxil olduğu auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

- Mülahizələri düzgün formalaşdırmaq üçün kifayət qədər auditor sübutlarının toplanması məqsədilə bizə qüvvədə olan audit standartlarının tələblərinə uyğun olaraq auditi planlaşdırmış və audit prosedurlarını yerinə yetirmişik. Audit zamanı təsdiq olunmuş sənədlərdə əsas kimi götürülmüş təsdiqedici materiallar yoxlanılmış, habelə sifarişçi təsərrüfat subyektinin tətbiq etdiyi uçot prinsipləri qiymətləndirilmişdir.

Qullu borcumuzla əlaqədar apardığım yoxlama ilə müəyyənləşdirilmişdir ki, mühasibat uçotu və illik balans qanuni göstərişlərə və nizamnamənin müddəalarına uyğundur.Mühasibat uçotu baxımından illik balans hüquqi şəxsin əmlak, maliyyə vəziyyətinin və gəlirliyinin faktiki münasibatlərə uyğun olan mənzərəsini yaradır.

Rəy 25.09.2023-cü il tarixdə eyni qüvəyə malik 2 nüsxədə tərtib edilmişdir.

"Kaspian Audit Kompani" MMC-nin

auditoru

AZƏRBAYCAN RESPUBLİKASI "Kaspian Audit Kompani" MMC CASPIAN AUDIT COMPANY Limited Liability Company AZERBAIJAN REPUBLIC

M.Y. _______________ (imza)